# ŞƏHİDLƏR

(1990-cı il yanvarın 20-də Azərbaycanın azadlığı uğurunda şəhid olanların əziz xatirəsinə)

...Anam Azərbaycanım,
qəm qarsıdı sinəni,
Unutmarıq bu günü,
unutmarıq dünəni,
Axı susdurmaq olmaz,
el yolunda dinəni.
Sizə heykəl Murovmu,
Dəlidağmı,Kəpəzmi?
Hansı ömrə tay tutum,
Bu vüqarı, bu əzmi?

Qara xətlə yazıldı
"20 Yanvar" adın,
Neçə ömrü taladı,
bu alovun, bu odun,
Bir ağladı ürəyi -
qəlbi qohumun, yadın,
Amalında, sözündə -
geridönməzlərsiniz,
Siz şəhid analarsız,
siz şəhid ərlərsiniz.

Sizə heykəl ucaldır
hər ürək bir biçimdə,
Dağ boyda heykəlsiniz,
qətrə qəlbin içində,
Elə sizin üçün də,
elə mənim üçün də
"Yaşamaq yanmaq imiş"-
el üçün, Vətən üçün,
Atam, heykəl ucalmaz,
hər yoldan ötən üçün.

13 yaş nədir axı,
bu yaşda hünərə bax,
Bu yaşda cəsarətə,
bu yaşda təpərə bax,
Eşidən qara geydi -
bu şəhid səfərə bax?
Bu səfərə gedənlər
geri dönməz, qayıtmaz,
Bu səfərə gedənlər
daşa dönər, boy atmaz.

Şəhidlər-
Bu ad mənim and yerim, qibləgahım,
Şəhidlər -
Bu ad mənim iniltim, ürək ahım,
Şəhidlər -
Bu ad mənim gələcəyim, sabahım,
Vüqarda - Savalanım,
həsrətdə - Ağrıdağım,
Bölünməz Naxçıvanım,
bölünməz Qarabağım.

Qarabağım bir yana -
Araz dərdim bir yana,
Bu fəryad nə fəryaddı,
ürək çətin dayana,
Ana: -Balam!-çağırdı,
bala dedi: -Oy, ana!
Nə yaşa fərq qoydunuz,
nə ada, nə taleyə,
Siz şəhid ünvanıyla
yazıldınız tarixə,
Siz şəhid ünvanıyla
Yazıldınız tarixə.

**21 yanvar 1990, Kəlbəcər**